**UDC:** 297.
**LBC:** 86.2\3
**MJ №** 223
10.33864/2617-751X.2024.v7.i3.76-88

# Gibran Khalil Gibran's Views on Religion

**Ulviyya Aghabayova***

**Abstract.** The great poet Gibran Khalil Gibran, who made the Arab culture recognizable in the United States of America, succeeded in endearing his works to European readers. He gathered many Arab intellectuals around the Pen League, which he created in the United States, and together they promoted the cultural heritage of the Arab world and Eastern spirituality. The work of Gibran Khalil was greatly influenced by the Bible and the Quran. It is possible to find different styles in his works – the Bible and the modernity, Eastern and Western culture. Gibran Khalil, a great Christian thinker, developed both Arab and Western cultural values and tried to synthesize them.

In his works, Gibran Khalil Gibran spoke about religious matters as well, and even though Gibran was a Christian, he had great sympathy for the Prophet of Islam, Muhammad Mustafa (PBUH), and did not discriminate between religions. He was influenced by members of different religions and showed tolerance in his creativity. At the same time, he opposed superstition in religion and criticized Church doctrines that stifled women's rights. Gibran Khalil blamed many mistakes not on religion itself, but on cruel laws adopted by the clergy.

The thinker sometimes aligned with pantheism in his thoughts, viewing a human as a part of God. Gibran Khalil Gibran believed that human is a perfect in creation. Therefore, justice must prevail among the humans who are part of God and in society on the same level.

**Keywords:** Gibran Khalil Gibran, Christianity, Islam, religion, superstition, man-God.

* Doctor of Philosophy, Associate Professor,
Baku State University, Department of Philosophy and Cultural Studies; Baku, Azerbaijan
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0000-0001-6734-1289

**To cite this article:** Aghabayova, U. [2024]. Gibran Khalil Gibran's Views on Religion. *“Metafizika” journal, 7*(3), pp.76-88.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.76-88

***Article history:***
*Received: 11.04.2024*
*Accepted: 01.07.2024*

**УДК:** 297.
**ББК:** 86.2\3
**MJ №** 223
10.33864/2617-751X.2024.v7.i3.76-88

# Идеи Джубрана Халила Джубрана о религии

**Ульвия Агабекова***

**Абстракт.** Великому поэту Джубран Халил Джубрану, представившему арабскую культуру в Соединенных Штатах Америки, удалось привить любовь европейских читателей к своим произведениям. Он собрал многих арабских интеллектуалов вокруг общества “Союз ручек”, которое создал в США, и вместе пропагандировал культурное наследие арабского мира и восточную духовность. Библия и Коран оказали большое влияние на творчество Джубрана Халила. В его работах можно найти разные стили – Библию и современность, восточную и западную культуру. Великий христианский мыслитель Джубран Халил, развил как арабские, так и западные культурные ценности и попытался их синтезировать.

В своих произведениях Джубран Халил Джубран много места уделял вопросам религии, несмотря на то, что принадлежал к христианской религии, он питал большую симпатию к Пророку ислама Мухаммаду Мустафе (мир ему и благословение Аллаха) и не делал различий между религиями. Он находился под влиянием представителей разных религий и проявлял толерантность в своем творчестве. В то же время он выступал против суеверий в религии и критиковал церковные доктрины, ущемляющие права женщин. Джубран Халил видел множество ошибок не в самой религии, а в жестоких законах, принятых религиозными деятелями.

Мыслитель порой склонялся в своих мыслях к пантеизму, оценивая человека как часть Бога. По мнению Джубрана Халила Джубрана, человек – совершенное творение. Поэтому справедливость должна восторжествовать и среди людей, и в обществе, являющихся частью Бога.

**Ключевые слова:** Джубран Халил Джубран, Христианство, Ислам, религия, суеверие, человек- Бог

* Доктор философских наук, доцент,
Бакинский государственный университет, факультет философии и культурологии; Баку, Азербайджан
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0000-0001-6734-1289

**Цитировать статью:** Агабекова, У. [2024]. Идеи Джубрана Халила Джубрана о религии. *Журнал «Metafizika», 7(3),* с.76-88.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.76-88

***История статьи:***
*Статья поступила в редакцию: 11.04.2024*
*Отправлена на доработку: 17.05.2024*
*Принята для печати: 01.07.2024*

**UOT:** 297.
**KBT:** 86.2\3
**MJ №** 223
10.33864/2617-751X.2024.v7.i3.76-88

# Cübran Xəlil Cübranın din haqqında fikirləri

**Ülviyyə Ağabəyova***

**Abstrakt.** Ərəb mədəniyyətini Amerika Birləşmiş Ştatlarında tanıdan böyük şair Cübran Xəlil Cübran əsərlərini Avropa oxucularına sevdirməyə müvəffəq olmuşdur. O, ABŞ-da yaratmış olduğu “Qələmlər birliyi” cəmiyyətinin ətrafına çoxsaylı ərəb ziyalılarını toplamış və birlikdə ərəb dünyasının mədəni irsini, Şərq mənəviyyatını təbliğ etmişdir. Cübran Xəlilin yaradıcılığına İncil və Quranın çox böyük təsiri olmuşdur. Onun əsərlərində müxtəlif üslublara rast gəlmək mümkündür – İncil və müasirlik, Şərq və Qərb mədəniyyəti. Xristian dininə mənsub olan böyük mütəfəkkir Cübran Xəlil həm ərəb, həm də Qərb mədəni dəyərlərini inkişaf etdirmiş və onların sintezinə çalışmışdır.

Əsərlərində din haqqında məsələlərə yer ayırmış Cübran Xəlil Cübran xristian dininə mənsub olmasına baxmayaraq, İslam Peyğəmbəri Məhəmməd Mustafaya (s.a.s.) böyük rəğbət bəsləmiş, dinlər arasında ayrıseçkilik salmamışdır. O, müxtəlif din mənsublarından təsirlənmiş, yaradıcılığında tolerantlıq nümayiş etdirmişdir. Eyni zamanda, dində olan xurafata qarşı çıxaraq, qadın hüquqlarını boğan kilsə ehkamlarını tənqid etmişdir. Cübran Xəlil bir çox səhvlərin dinin özündə deyil, din xadimlərinin qəbul etdikləri amansız qanunlarda görürdü.

Mütəfəkkir bəzən fikirlərində panteizmə meyl edərək, insanı Tanrının bir parçası kimi dəyərləndirirdi. Cübran Xəlil Cübrana görə insan mükəmməl yaradılışdır. Ona görə də Tanrının hissəsi olan insanlar arasında və cəmiyyətdə eyni dərəcədə ədalət hökm sürməlidir.

**Açar sözlər:** Cübran Xəlil Cübran, Xristianlıq, İslam, din, cəhalət, insan-Tanrı

---

* Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
Bakı Dövlət Universiteti, Fəlsəfə və mədəniyyətşünaslıq kafedrası; Bakı, Azərbaycan
E-mail: ulviya.agabeyli@mail.ru
https://orcid.org/0000-0001-6734-1289

**Məqaləyə istinad:** Ağabəyova, Ü. [2024] Cübran Xəlil Cübranın din haqqında fikirləri. *“Metafizika” jurnalı, 7*(3), səh.76-88.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.76-88

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 11.04.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 17.05.2024*
*Çapa qəbul edilmişdir: 01.07.2024*

## 1.Giriş

Məşəqqətli ömür yaşayan Cübran bin Xəlil bin Mixail bin Saad Cübran 1883-cü ildə soyuq qış ayında Livanda dünyaya göz açmış və 1931-ci ilin baharında həyata vida etmişdir.

Cübran Xəlil Cübran əsərlərində vətəni Livanı belə təsvir edir: “*Livan Qərbin şairləri üçündür. Livan Davudun, Süleymanın və digər peyğəmbərlərin yoxa çıxması ilə, Adəm və Həvvanın süqutu ilə reallığını itirmiş əfsanəvi ölkədir*” [LiveLib, 2023, October 28].

Cübran Xəlil həm livanlı, həm də amerikalı filosof, şair və yazıçı, istedadlı rəssamdır. O, XX yüzilliyin məhcər ərəb ədəbiyyatının ən böyük mütəfəkkiri hesab olunur. Ərəb mədəniyyətini Amerika Birləşmiş Ştatlarında tanıdan böyük şair əsərlərini Avropa oxucularına sevdirməyə müvəffəq olmuşdur. ABŞ-da yaratmış olduğu “*Qələmlər birliyi*” cəmiyyətinin ətrafına çoxsaylı ərəb ziyalılarını toplamış və birlikdə ərəb dünyasının mədəni irsini, Şərq mənəviyyatını təbliğ etmişdir.

Böyük rus mütəfəkkiri, ərəbşünas, akademik İ.Y.Kraçkovskiy Amerikada məhcər həyatı sürmüş ərəb yazıçılarından Əmin ər-Reyhani və Cübran Xəlil Cübranın yaradıcılığını tədqiq etmiş və göstərmişdir ki, Cübran Xəlilin dünyagörüşü Əmin ər-Reyhaninin fikirləri ilə çox yaxındır. Özünükamilləşdirmək, mənəvi-əxlaqi dəyərləri inkişaf etdirmək, Qərb sivilizasiyasına qarşı məyusluq, “*təbiətə dönməyə səy etmək*” - onların ortaq ideyaları idi [Крачковский, 2007, s.194-195].

## 2.Cübran Xəlil Cübranın yaradıcılığı haqqında

Cübran Xəlil yaradıcılığının ilk mərhələsində yaşadığı cəmiyyətə tənqidi yanaşmış və əsərlərində sosial problemləri işıqlandırmışdır. Sonrakı dövrlərdə ictimai-dini problemlərlə üzləşmiş, birləşdirici mövqeyə keçmiş, əsərləri ilə sevgi dolu dinc bir mühit yaratmağa çalışmışdır ki, bu da onun ədəbi şəxsiyyətinin formalaşmasında mühüm rol oynamışdır. O, yetişdiyi Qərb mədəniyyətinin təsirini ədəbiyyata daşımışdır. Cəmiyyətin sənətdən təsirləndiyi kimi, sənətin və sənətçinin də cəmiyyətdən təsirlənməsi onun simasında bir reallığa çevrilmişdi [Yeşildağ, 2020, s.6-7].

Cübran Xəlil sevgi və gözəlliyin dinini yaratmağa cəhd etmiş, insanla ətraf aləmin vəhdətinə çalışmışdı. İ.Y.Kraçkovskiy yazırdı ki, Cübran Xəlilin yaradıcılığına İncil və Quranın çox böyük təsiri olmuşdur. Cübranın əsərlərində müxtəlif üslublara rast gəlmək mümkündür – İncil və müasirlik, Şərq və Qərb – bu kimi müqayisəli fikirlər özünü göstərir [Крачковский, 2007, s.195].

Şairin dünyagörüşünün formalaşmasına Qərb mütəfəkkirlərindən ingilis şairi, mistik və rəssam Vilyam Bleykin, alman filosofu Fridrix Nitşenin, amerikan şairi və publisisti Uolt Uitmenin böyük təsiri olmuşdur. Xristian dininə mənsub olan böyük mütəfəkkir Cübran Xəlil həm ərəb, həm də Qərb

mədəni dəyərlərini inkişaf etdirmiş və sintezinə çalışmışdır. Əbəs yerə ***"İsa mənim sinəmin bir tərəfində, Məhəmməd isə digər tərəfində oturur"*** – deməmişdir.

"Suriya-Amerika məktəbi"nin nümayəndələrindən biri olan Cübran Xəlil qərb romantizmindən, rus klassiklərinin realizmindən, Amerika və Avropa etik - estetik fikrindən bəhrələnərək, həmin baxışları milli dəyərlərlə sintez edərək ərəb mühacir ədəbiyyatını yeni üslubda təqdim etməyi bacarmışdır [İmanquliyeva, 2007, s.5].

Cübran Xəlil "Peyğəmbər", "Peyğəmbər bağı" "Çəmənlər gəlinləri", "Qırılmış qanadlar", "Göz yaşı və təbəssüm", "Musiqi", "Yürüşlər", "Tufanlar", "Qəribələr və ecazkarlar", "Divanə", "Sələf", "İsa insan oğludur" və s. əsərlərində sevgi, təbiət, etik-estetik və dini məsələlər olmaqla müxtəlif problemlərə toxunmuşdur.

Əvvəlki tədqiqatlarımızda Cübran Xəlil Cübranın yaradıcılığında yer alan etik-estetik, sevgi-təbiət, əmək, dostluq, sevinc və kədər, günah və cəza, azadlıq kimi məsələlərdən bəhs etmişdik. Bu məqaləmizdə isə mütəfəkkirin din haqqında fikirlərinə diqqət yetirmək istəyirik.

Dinlər arasında ayrıseçkilik salmayan, özünü həm müsəlman, həm də xristian dininin nümayəndəsi hesab edən mütəfəkkir 1923-cü ildə Nyu-Yorkda ingilis dilində qələmə aldığı "*Peyğəmbər*" əsərində həyat və ölüm, xeyir və şər kimi problemlərə toxunmuş, dini, teoloji ideyalar sərgiləmişdir. Həmin kitab haqqında yazıçı həssaslıqla yazır: *"Peyğəmbər mənim min il əvvəl düşündüyüm, lakin keçən ilin sonuna kimi bir fəsil də yazmadığım kitabdır. Bu kitab mənim ikinci dəfə dünyaya gəlişim və ilk xaç suyuna salınmamdır. Mən bu peyğəmbəri yaratmamışdan əvvəl, o, məni yaradıb, mən onu yazmamışdan əvvəl o, məni yazıb..."* [Cübran, 2009, s.35].

"Suriya-Amerika məktəbi"nin nümayəndələri, baxmayaraq ki, Qərb mədəni irsinə müraciət etmişlər, onların heç biri ərəb mənəvi ruhunu "yadlaşdırmamış", əksinə, nə xristian, nə də İslam dinindən uzaq durmamış, Şərq və Qərb dəyərlərinin sintezinə çalışaraq yeni üslubla onu daha da rəngarəng etmişlər. Bunun nəticəsi olaraq, ərəb ədəbi – fəlsəfi təfəkkürü dövrə uyğun şəkildə inkişaf etmişdir.

Cübran Xəlil Cübran fəlsəfi baxışlarında idealist mövqedən çıxış edərək göstərirdi ki, "həyat, hər şeydən əvvəl, ruhun həyatıdır". O, transsendental təzahürlərlə Allahın mahiyyəti arasında əlaqədən və insanı həqiqətə aparan peygəmbərlik problemindən, teoloji fikirlərdən bəhs etmişdir [İmanquliyeva, 2007, s.25].

## 3.Cübran Xəlil Cübran din haqqında

Cübran Xəlilin dini görüşləri özünəməxsus yer tutur. Xristian mühitində böyüməsinə baxmayaraq, o, İslam dininin təsirindən yan keçə bilməmişdir.

Onun dünyagörüşünün formalaşmasında hələ kiçik yaşlarından müxtəlif din mənsublarının böyük rolu olmuşdur. İslam, xristianlıq, iudaizm dinləri ilə və əsasən də, sufiliklə maraqlanmış, müxtəlif janrlı əsərlər yaratmağa müvəffəq olmuşdur. Qüssəli zamanlarında bəlkə də saatlarla təkliyə çəkilərək tez-tez təbiətə üz tutması, təbiətlə dərdləşməsi, təbiətdən güc alması sufizmdən təsirlənməsinin nəticəsi idi.

“Peyğəmbər” kitabında din haqqında məsələlərə yer ayıran mütəfəkkir əsərdə Əl-Mustafanın (Peyğəmbəri belə adlandırırdı) dili ilə fikirlərini ifadə etməyə çalışır.

“Din nədir?” – sualına Əl-Mustafanın adından cavab verir: “Məgər din sizin bütün əməlləriniz və onların əksi deyilmi? Əlləriniz daşları yonarkən, dəzgahları işlədərkən səyləriniz sevinc və həyəcanla ruhunuzdan tökülən əməlləriniz deyilmi? Kim öz imanını və əqidəsini əməlindən ayıra bilər ki? Kim saatlarını əvvəlcədən bölüb deyə bilər ki, bu Allah üçündür, bu özüm üçündür, bu ruhum üçündür, o biri də bədən üçündür? Bütün saatlarınız boşluqdan keçərək sizi özünüzdən özünüzə aparan iki qanaddır” [Cibran, 1982, s.67].

Buradan göründüyü kimi, yazıçı insanın əməllərini inancı və əqidəsi ilə əlaqələndirir. Allahın insana bəxş etdiyi zamanın belə tam şəkildə ona aid olmadığını bildirir.

Əl-Mustafa davam edir: *“Əxlaqını ancaq bayırlıq paltarı kimi çiyninə keçirən kəs, çılpaq gəzsə yaxsıdır. Nə külək, nə də günəş onun dərisini dəlməyəcək. Kim olursa olsun, öz davranışlarını müəyyən edilmiş etik normalara, əxlaqi qaydalara uyğun sərgiləməlidir. Bu zaman insan nəğmə quşunu qəfəsə salmış olur. Azad nəğmələr dəmir barmaqlıqlar və ya tikanlı məftillər arxasından eşidilməz”* [Cibran, 1982, s.67].

Göründüyü kimi, mütəfəkkir insanın əxlaqi dəyərlərə həyatı boyu sahib olmasının gərəkliyini və etik normalardan kənara çıxmamasının vacibliyini vurğulayır.

Mütəfəkkir əsərdə qeyd edir ki, “bəzi insanlar üçün ibadət açılıb, lakin tez bağlana bilən bir pəncərədir. Yəni həmin kəslərin imanı o qədər zəifdir ki, sübh çağından səhərə kimi onun ruhunun evinə daxil ola bilməmişdir” [Cibran, 1982, s.67]. Cübran Xəlil demək istəyir ki, ibadət insanın ruhundan gəlməlidir. Vaxtaşırı ibadət edib ondan uzaqlaşmaq olmaz. Daxilən inamı bayağı olanlar gah ibadətində olacaq, gah da ondan qaçacaq.

“Peyğəmbər” əsərində deyilir ki, “*insanın gündəlik həyatı onun məbədi və dinidir. Və nə zaman oraya daxil olsanız, bütün olanlarınızı özünüzlə aparın – ehtiyacdan və ya zövq üçün yaratdığınız hər şeyi – kotanı, xışı, çəkici, hətta musiqi alətinizi. Çünki dualarınızda nailiyyətlərinizdən yuxarı qalxa və ya uğursuzluqlarınızdan aşağı enə bilməzsiniz. Özünüzlə bütün insanları aparın. Çünki bu dualarda nə onların ümidlərindən yüksəkdə uça biləcəksən, nə də*

*özünü onların ümidsizliyindən aşağı endirə biləcəksən*" [Cibran, 1982, s.68]. Cübran Xəlilə görə, Allahın sevgisini qazanmaq üçün insan özünü bütünlüklə ibadətə həsr etməlidir.

Mütəfəkkir həmin əsərdə yazır: *"Əgər Allahı tanımaq istəyirsinizsə, Ondan suallarınızı cavablandırmağı və səhvlərinizi düzəltməsini gözləməyin, sirləri həll etməyə çalışmayın. Ətrafınıza baxsanız daha yaxşı olar. Allahın sizin uşaqlarınızla oynadığını görərsiniz. Başınızı qaldırıb fəzaya baxın. Onun buludların üzərində yeridiyini, şimşəklər şəklində qollarını iki yana uzadıb yağış yağdırdığını görəcəksiniz. Onun çiçəklər arasından sizə gülümsədiyini, sonra da ağaclardan yüksəlib sizlərə əl etdiyini görəcəksiniz"* [Cibran, 1982, s.68]. Bu sözlərlə Cübran Xəlil Allahın hər zaman, hər yerdə insanları izlədiyini, müşayiət etdiyini xatırlatmaq istəyir.

Yazıçı sevgidən danışarkən, onun Allahdan keçdiyini söyləyir: əgər Sevgi sizi "yaxalamışsa", "Allahı ürəyimdə daşıyıram" əvəzinə, "Allahın ürəyinə daxil oldum" - desəniz yaxşı olar. Heç zaman Sevgini istiqamətləndirə biləcəyinizi düşünməyin. Çünki Sevgi öz istiqamətini özü seçir [Cibran, 1982, s.17].

Cübran Xəlil Cübran bütün dinlərə sevgi ilə yanaşmış və hər bir din mənsubunu bərabər dəyərləndirmişdir. O, müsəlman, xristian, yəhudi barədə deyirdi: "Sən mənim qardaşımsan və mən səni sevirəm. Sən məsciddə səcdədə olanda da, kilsədə diz çökəndə də, sinaqoqda ibadət edəndə də səni sevirəm. Sən və mən inamın – Allahın övladlarıyıq" [Wikipedia]. "Peyğəmbər" kitabında deyilir: "din islam, xristianlıq, yəhudilik və ya hər hansı bir inanc çərçivəsində məhdudlaşmır. Onun üçün din və Allah həyatın özüdür. Din insanların əməl və düşüncələrindədir. İnsanların gündəlik həyatı onların mədəbi və dinidir [İmanquliyeva, 2003, s.131].

Mütəfəkkir dini təqlid etməkdən uzaq olub, Yaradana yaxınlaşmaq üçün ilk öncə Onu qəlblərdə və duyğularda hiss etməyi insanlara aşılayırdı. O, göstərirdi ki, dini ehkamları əzbərləməkdənsə, iman və vicdanla dini qaydalara riayət etmək lazımdır. *"Tanrı hər yerdədir"* [Yeşildağ, 2020, s.10] fikrini qəbul edərək, kilsəyə getməyin hec də vacib olmadığını söyləyən Cübran Xəlil qadın hüquqlarını boğan dini ehkamları rədd etmişdir.

Yazıçı "Qırılmış qanadlar" əsərində cənnət-cəhənnəm, cəza-mükafat, həyat-ölüm, ruh, Allah məsələlərinə geniş yer vermişdir. Dinin qadını sıxışdıran, onu alçaldan, kölə halına salan bir ehkamın olmadığını deyən Cübran Xəlil dini çətinləşdirən din xadimlərinə qarşı çıxırdı. O, xristianların müqəddəs din adamı kimi qəbul etdikləri yepiskopun, xalqın sandığı kimi, inanılan biri olmadığını, etdiyi bədxah işlərə müqəddəs kitabları olan İncili alət etdiyini dönə-dönə söyləyirdi. İnsanların qeyri-şərtsiz inandıqları saxta din adamlarının, əslində yalançı, riyakar, zalım olduqlarını bildirir və onları ifşa edirdi. Mütəfəkkir özlərini xaricdən xeyirxah kimi göstərən, lakin

daxildən bədxah, qara qəlbli, dindən öz mənfəətləri üçün istifadə edən ikiüzlü din adamlarını tənqid atəşinə tuturdu. Cübran Xəlil yazır: *“Bu yepiskop gözəl xasiyyətli və təmiz ruha sahib olan din adamı kimi insanları inandırmışdır. Bu yepiskop ölkədə müqəddəs sayılan dinin başında duran adamdır. Hər kəs itaət edib ona səcdə edir. Bu yepiskop da ətrafındakıları bir qoyun sürüsü kimi qəssaba doğru aparır”* [Yeşildağ, 2020, s.13-14].

Cübran Xəlilə görə, din xadimləri, əsasən, kasıb və yetimlərə qarşı zorakılıq etmişlər. “Qırılmış qanadlar” əsərində Səlmanın dili ilə yepiskopun zorla atasından onu istəməsi təsvir edilir. Səlma atasına deyir: “Anlayıram. Hər şeyi anlayıram. Yepiskop məni səndən istədi və bu qırıq qanadlı quş üçün bir qəfəs hazırlandı. İstədiyin bu idimi, baba?” Mütəfəkkir əsərlərində dəfələrlə dində qadın probleminə toxunurdu. O, qeyd edirdi ki, heç bir dində qadına qarşı zorakılıq yoxdur. Lakin qadın gələcək həyat yoldaşını belə seçmək hüququna malik deyil. Müqəddəs kitablarda qadına qarşı bu cür zorakılıq yer almamışdır. Qadını dəyərdən salan, ona kölə kimi baxan din deyil, öz mənfəətləri üçün dindən istifadə edən din adamlarıdır. [Yeşildağ, 2020, s.15].

Cübran Xəlil dinə qarşı münasibətini bildirmiş, daima ruh və ağlın azadlığı fikrini irəli sürmüş, insanları ziyan verəcək dini ehkamların hər cürünü qəbul etməməyə səsləmişdir. Zorba din adamlarının elmsiz və cahil olduqlarını dönə-dönə qeyd etmişdir. Yazıçı köhnə adətlərin əsirinə çevrilmiş məntiqdən uzaq, geridə qalmış, cahil və əxlaqsız cəmiyyətin formalaşdığını və bu zehniyyatın nəsildən-nəslə ötürüldüyünü ürək agrısı ilə qeyd etmişdi. O, göstərirdi ki, cəmiyyətin bu cür ağır vəziyyəti getdikcə normal hala çevrilir, keçmişdəki səhvlər sorğu-sualsız qəbul edilir. Bütün bunlara qarşı çıxanlar isə itaətsizlikdə günahlandırılaraq cəmiyyət tərəfindən təqib edilirlər [Yeşildağ, 2020, s.17].

Cübran Xəlil Cübran din haqqında deyirdi:

- əgər dinin məqsədi mükafatdırsa, əgər vətənpərvərlik eqoist maraqlara xidmət edirsə, təhsil isə sosial status əldə etmək məqsədinə xidmət edirsə, onda mən dinsiz və cahil olmağa, vətənpərvər olmamağa üstünlük verirəm [12];

Mütəfəkkir sevgidən danışır:

- əgər sevirsənsə, demə ki, “Allah mənim ürəyimdədir”; yaxşı olar ki, “mən İlahinin ürəyimdəyəm” – deyəsən. [13].

Cübran Xəlil Cübran insanın yaradılışından söz açaraq deyir: “Allahim, Sən mənim qanadlı “Mən”imi yaratdın. Sənin iradən bizə əmr edir. Sənin istəyin bizdə arzu yaradır. Gündüzə çevrilən gecələrimiz sənə aiddir. Biz Səndən heç nə istəyə bilmərik, çünki Sən bizim ehtiyaclarımızı bizdə yaranmamışdan əvvəl bilənsən” [14].

Mütəfəkkir yazır: “Məgər din bütün bizim əməllərimiz və onların əksi deyilmi? Yaxud din nə əməlimiz, nə də onun əksi deyil. Din ruhumuzdan süzülüb gələn sevincimiz və həyəcanımızdır. Kim imanını, əqidəsini əməlindən ayıra bilər? Kim zamanını bölərək deyə bilər: “Bu Allah üçündür, bu isə mənim üçündür, bu mənim ruhum üçündür, digəri isə bədənim üçündür?” Sizin bütün saatlarınız – sizi boşluqda özünüzdən özünüzə aparan qanadlardır [15].

**4.“Surahu-l-kubur” hekayəsi haqqında**

1949-cu ildə Cübran Xəlil Cübranın yazmış olduğu “Surahu-l-kubur” (“Qəbirlərin fəryadı”) adlı hekayə, əslində “Əl-ərvahu-l-Mutərəmmidə” (“Asi ruhlar”) əsərində yer almışdır. Yazıçı həmin hekayədə mütləq hakimiyyətə, sərt kilsə qanunlarına, mövcud amansız adət-ənənələrə qarşı çıxır. Əsərdə söhbət üç adamın acı taleyindən - sorğu-sual olunmadan ölümünə hökm oxunmasından gedir. Birinci adam bir əsgəri öldürür və ona görə də ittiham edilir. Əslində, onun əsgərə qarşı şəxsi-qərəzliyi olmamış, nişanlısının namusunu qorumaq üçün öldürmüşdü. Əsgər həmin dəliqanlının nişanlısını komandiri ilə bərabər olması üçün zorla saraya götürmək istəmişdi. İkinci adam isə zina etməkdə günahlandırılırdı. Əslində bu qadın zina etməmişdi. Atası tərəfindən məcbur edilərək istəmədiyi birisi ilə evləndirilmişdi. Həmin qızın həyatında isə bir-birlərini dəlicəsinə sevən gənc dəliqanlı vardı. Bir gün həmin dəliqanlı qızın yanına gəlir və söhbət edirlər. Bunu görən əri onu zina etməkdə günahlandırır. Və sonda qızın daş-qalaq edilərək öldürülməsinə qərar verilir. Üçüncü adam isə oğurluqda ittiham edilirdi. Onu kilsənin qızıl qapılarını oğurlamaqda günahlandırırdılar. Əslində isə o, icazəsiz bir miqdar un götürmüşdü. Çünki kilsədən qovulduqdan sonra övladlarına yeyəcək bir şey tapmadığından bu işi etmişdi. Uşaqlarının aclıqdan qıvrıldığını görən ata buna dözə bilməmiş, kilsəyə üz tutmuş və unu götürmək istədiyi yerdə yaxalanmışdı. Hekayədə üç qəhrəman obraz canlardırılır: birinci obraz namus və şərəf üçün addım atmış gənc, ikinci talesiz, üçüncü isə kasıblıq, yoxsulluq və acizliyin qurbanı olan adamdır [Nüsha, 2002, s.93].

Yazıçı “Surahu-l-kubur” hekayəsində feodalizmə, kilsə rejiminin haqsız davranışlarına qarşı çıxır və bu davranışların səbəbini, dini istismarın hər cür formasını ifşa etməyə çalışır. Törədilən hər bir cinayətin səbəbi olduğunu və həmin səbəbin araşdırılmasının vacibliyini deyən yazıçı hekayəsində hər üç qəhrəmanın dini istismara məruz qaldığını bildirir [Nüsha, 2002, s.94].

Cübran Xəlil hekayədə mövcud qanunlara qarşı çıxır. Məsələn, təsvir etdiyi birinci qəhrəmanın əsgəri öldürməsinin səbəbi, ac övladlarını doyurmaq istəyən atanın etdiyi hərəkətinin səbəbi öyrənilmədən onların cəzalandırılması mövcud rejimin özbaşınalığı, kilsə qanunlarının qeyri-ədalətli olması kimi səciyyələndirilir.

Eyni zamanda, Cübran Xəlil “Surahu-l-kubur” hekayəsində fəlsəfi mühakimə yürüdür və insanla insan, Tanrı ilə insan arasındakı əlaqələri təhlil etməyə çalışır. Tanrının əmr etdiyi hökmlərə qarşı çıxaraq insanlar özlərinin qoyduqları qanunlarla hərəkət edirlər. Bu isə xoş qarşılanmayan mənfi hallardır.

**5.Mütəfəkkir tərəfindən dini ehkamların tənqidi**

Cübran Xəlil Cübran dini ehkamları, dini qanunları tənqid edərək, xalqın, kütlənin dini öz ruhlarına, ağıllarına uyğun qəbul etdiklərindən danışır: “Qanun. Nədir qanun? Kim onu göy üzünün dərinliklərindən günəşin işığı ilə birlikdə yerə enərkən gördü? Kim Allahın qəlbini görüb də, Onun insanlıq haqqında düşüncələrini bildi? Hansı dövrdə, hansı nəsildə “mələklər insanların arasına girib” zəifləri həyatın işığından məhrum edib, dəyərsiz şeyləri qılıncın ucu ilə bitirin və xəta edənləri dəmir ayaqqabılarla üzərindən keçin- dedilər?” Bir adam monastrı soymaq istərkən insanlar ona pis oğru deyirlər, amma hökmdar onun həyatına son qoymaq istəyəndə, insanlar hökmdara fəzilətli olduğunu bildirərlər. “Ərinə xəyanət etmiş qadına insanlar pis qadın deyərlər. Amma hökmdar onu çılpaq şəkildə gəzdirərək şahidləri tərəfindən daş-qalaq etdirəndə, bu, şərəfli bir hökmdardır- deyirlər” [Nüsha, 2002, s.94-95].

Yazıçı həmin hekayədə göstərir ki, düşüncələrim buludlarda ilişib qalan şəfəqdəki cizgilərin bir-birinə qarışdığına bənzəyir və öz-özümə deyirəm: “otlar torpaqdakı elementləri mənimsəyər, qoyunlar bu otları yeyər, qurd qoyunları parçalayar, kərgədan qurdu öldürər, aslan kərgədanı ovlayar, nəhayət ölüm aslanı yox edər. Ölümü üstələyəcək, zülümlər silsiləsini ədalətə çevirəcək bir qüvvə varmı? Bütün pis hadisələri yaxşı sonluqla bitirəcək bir güc varmı? Əlləri ilə həyatın bütün ünsürlərini tutub – dənizin bütün çırpıntılarının bir ahənglə dibinə dönməsi kimi – onları gülümsəyərək bağrına basacaq bir güc varmı? Qatil və öldürdüyü kimsəni, zina edən kimsəylə dostunu, oğurluq edəni hökmdarın məhkəməsindən daha ədalətli bir məhkəmənin önündə yarğılayacaq bir güc varmı?” ... “Hökmdarın öz həyatında heç çatışmazlıqlar olmadımı? Gücsüz insandan mal və ya hər hansı bir şey oğurlamadımı? Gözəl bir qadını arzulamadımı? Hökmdar özü bütün bu şeylərdən məhrum idimi ki, qatilin boynunu vurdu, oğrunu edam etdirdi, zina edən qadını rəcm etdi (daşqalaq etdi)” [Nüsha, 2002, s.95].

Bununla yazıçı məzlumların haqsız yerə zülmə məruz qaldıqlarından və sonda həyatlarından məhrum olduqlarından üzüntü ilə danışır.

Cübran Xəlil Cübran günahkarların mühakimə olunduğu qanunların Tanrının qanunları, yoxsa insanların yaratdığı qanunlar olduğunu anlamaqda tərəddüd edir: “Oğrunu edam üçün ağaca çıxaran kimdir? Göy üzündən enən mələklərmi, yoxsa əllərinə keçən hər şeyi qəsb edən insanlarmı? Bu qatilin başını kim kəsdi? Yüksəklikdən enən peyğəmbərlərmi, yoxsa harda olursa

olsun, qan tökən və öldürən əsgərlərmi? Bu qadını kim daşladı? Məbədlərə çəkilib özlərini ibadətə həsr etmiş insanlarmı, yoxsa qaranlıq içində rəzalət işlərlə məşğul olan insanlarmi?” [Nüsha, 2002, s.96].

Cübran Xəlil edam hökmü ilə mühakimə edilən üç adamın, əslində günahlarının çox da agır olmadığını oxucusuna çatdırmaq istəmişdir. O, hesab edirdi ki, günahkarların ağır cəzaya məruz qalmalarının səbəbi adət və ənənələrin yanlış olmasındadır. Eyni zamanda, yazıçı bu üç adamın etdikləri hərəkətdə haqlı olduqlarını anlatmaq istəmişdir. Cübran Xəlilə görə, hökmdarın həddindən artıq səlahiyyətə malik olması və onun hökmlərinə etirazsız, birmənalı olaraq mütilik etmək cəmiyyətin böyük xətasıdır. Digər tərəfdən də, Cübran Xəlil göstərir ki, günahkarın söz haqqının olmaması və Alların ədalət prinsipinin düzgün yerinə yetirilməməsi din xadimlərinin, hökmdarın, yoxsa cəmiyyətin səhvidir? [Nüsha, 2002, s.97].

Neçə-neçə insanlar dinin, cəhalətin, xurafatın qurbanına çevrilmişdi. Ona görə də, insanlar adət-ənənələrin qanunları ilə deyil, ədalətin hökmü ilə cəzalandırılmalıdırlar.

Cübran Xəlil Cübran qeyd edir:

- Qan tökülməsi qadağandır. Amma hökmdar üçün bunu qanunu hala gətirən kimdir?
- Malların oğurlanması cinayətdir. Bəs ruhların oğurlanmasını qanuniləşdirən kimdir?
- Qadınların xəyanəti çirkindir. Lakin vücudlarının daşlanmasını “gözəl” hala gətirən kimdir?

Pisliyə pisliklə qarşılıq verib, bu qanundur - deyirik. Günahı daha böyük gunahla yuyub, bu adətdir - deyirik. Hökmdar özü heç bir zaman xəta etmədimi? Hər hansı bir gücsüz insandan nəsə oğurlamadımı? Gözəl bir qadını arzulamadımı? O özü bütün qadağalardan məsum idimi ki, qatilin boynunu vurdu, oğrunu edam etdi, zina edən qadını rəcm etdi? Oğrunu edam ağacına göydən enən mələklərmi çıxartdı? Qatilin başını alidən enən peyğəmbərlərmi kəsdi? Qadını məbədlərdə ibadət edən təmiz insanlarmı daşladı? [(Nüsha, 2002, s.100-101].

**6.Nəticə**

Hekayənin sonunda yazıçı məyusluğunu və kədərini bu sözlərlə bitirir: “Günəş şəfəqin arxasında gizlənmişdi. Sanki o, insanlığın problemlərindən bezmiş və nifrət etmişdi. Axşam təbiətin üzərini örtmək üçün kölgə və sükunətin ipliklərindən incə bir parça toxudu. Gözlərimi yuxarılara dikdim, əllərimi qəbirlərə və onların üzərindəki işarələrə tərəf uzadaraq yüksək səslə bağırdım – bax, bu sənin qını torpaq olan qılıncındır, ey cəsarət! Bax, bu sənin atəşlərin yandırdığı çiçəklərindir, ey eşq! Bax, bu sənin gecənin qaranlığını örtdüyü xaçındır, ey İsa!!!” [Nüsha, 2002, s.104].

Belə ki, Cübran Xəlil Cübran din haqqında düşüncələrini əsərlərində əks etdirmiş, yalnışlıqları, xətaları dinin özündə deyil, din adamlarının maddi və mənəvi mənafelərinə uyğun qanunlar qəbul edərək xalqı istismar etməsində, kilsə qanunlarının amansız şərtlərində görürdü. İnsanların söz azadlıqlarının olmaması, hürlərinin boğulması cəhalət və xürafatdan doğur- deyirdi Cübran Xəlil Cübran.

## ƏDƏBİYYAT

1. Cübran, X. C. (2009). *Sükutun poeziyası*. Bakı, Şərq-Qərb, 244 s.
2. Cibran, E. H. (1982). *The prophet*. Havass, 80 s.
3. Əbu Fadil, R. B. (1992). *Əl-Fikru-d-Dini fil ədəbil Məhcəri* (Vol. 2). Beyrut, Dərul Cil.
4. Cibran, H. (2017). *Kırık kanatlar* (K. Sarıalıoğlu, Trans.). İstanbul, Türkiye İş Bankası Kültür Yayınları. (Original work published 2017; reprinted July 2018).
5. İmanquliyeva, A. N. (2003). *Yeni ərəb ədəbiyyatı korifeyləri: XX əsrin əvvəllərində Şərq və Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqəsi probleminə dair*. Bakı, Elm, 400 s.
6. Yeşildağ, A. (Ed.). (2020). *Modern arap romanına sosyolojik bir bakış denemeleri*. Ankara-Turkey, İksad Publications, 148 s.
7. Nüsha. (2002). Redaksiyon: Almaz, H., Hekimoğlu, M., Polad, İ. E., & Tuzcu, K. Ankara, *Bahar 2(5),* səh.91-105.
8. İmanquliyeva, A. (2007). *Modern arap edebiyatının usta kalemleri: Cibran Halil Cibran, Emin er-Reyhani, Mihail Nuayme*. Kültür Sanat Yayılcılıq. İstanbul, “Kültür sanat yayılcılıq”, 380 s.
9. Крачковский, И. Ю. (2007). Биобиблиограф *(1883-1951): Биобиблиограф. Указатель* (Отв. ред. Колпакова, Н.В.). СПб.: БАН, 232 с.
10. LiveLib. (2023, October 28). *Slomannye krylya: Dzhebran Halil Dzhebran*. Retrieved from https://www.livelib.ru/quote/45066754-slomannye-krylya-dzhebran-halil-dzhebran
11. Wikipedia. (n.d.). Cübran Xəlil Cübran. Retrieved August 17, 2024, from https://az.wikipedia.org/wiki/Cübran_Xəlil_Cübran
12. Citaty. (2023, October 28). *Dzhebran Khalil Dzhebran*. Retrieved from https://ru.citaty.net/avtory/dzhebran-khalil-dzhebran/
13. LiveLib. (2023, October 28). *Quotes by author Dzhebran Khalil Dzhebran*. Retrieved from https://www.livelib.ru/author/18586/quotes/~2
14. LiveLib. (2023, October 28). *Prorok: Dzhebran Halil Dzhebran*. Retrieved from https://www.livelib.ru/quote/42776645-prorok-dzhebran-halil-dzhebran
15. LiveLib. (2023, October 28). *Quotes by Dzhebran Khalil Dzhebran*. Retrieved from https://www.livelib.ru/author/18586/quotes/~10

## REFERENCES

1. Gibran, K. G. (2009). *The Poetry of Silence.* Baku, Sharq-Qarb, 244 pages. (in Azerbaijani)
2. Cibran, E. H. (1982). *The Prophet.* Havass, 80 pages. (in English)
3. Abu Fadil, R. B. (1992). *Al-Fikru-d-Dini fil Adab al-Mahjari* (Vol. 2). Beirut, Dar al-Jil. (in Arabic)
4. Cibran, H. (2017). *Broken wings* (K. Sarıalıoğlu, Trans.). Istanbul, Turkey Ish Bankasi Culture Publications. (Original work published 2017; reprinted July 2018). (in Turkish)
5. Imanguliyeva, A. N. (2003). *New luminaries of Arabic literature: on the problem of interaction between Eastern and Western literature at the beginning of the 20th century.* Baku, Elm, 400 p. (in Azerbaijani)
6. Yeshildagh, A. (Ed.). (2020). *A sociological perspective on modern Arabic novel.* Ankara-Turkey, Iksad Publications, 148 p. (in Turkish)
7. Copy. (2002). Edited by: Almaz, H., Hekimoğlu, M., Polad, İ. E., & Tuzcu, K. Ankara, *Spring 2(5)*, pp.91-105. (in Turkish)
8. Imanquliyeva, A. (2007). *Master writers of modern Arabic literature: Gibran Khalil Gibran, Emin er-Reyhani, Mihail Nuayme.* Culture and Art Dissemination. Istanbul, "Culture and Art Dissemination", 380 p. (in Turkish)
9. Krachkovsky, I. Yu. (2007). *Biobibliographer (1883-1951): Biobibliographer. Directory* (Otv. ed. Kolpakova, N.V.). St. Petersburg: BAN, 232 p. (in Russian)
10. *LiveLib.* (2023, October 28). Slomannye krylya: Dzhebran Halil Dzhebran. Retrieved from https://www.livelib.ru/quote/45066754-slomannye-krylya-dzhebran-halil-dzhebran (in Russian)
11. *Wikipedia.* (n.d.). Cubran Xalil Cubran. Retrieved August 17, 2024, from https://az.wikipedia.org/wiki/Cübran_Xəlil_Cübran (in Azerbaijani)
12. *Citaty.* (2023, October 28). Dzhebran Khalil Dzhebran. Retrieved from https://ru.citaty.net/avtory/dzhebran-khalil-dzhebran/(in Russian)
13. *LiveLib.* (2023, October 28). Quotes by author Dzhebran Khalil Dzhebran. Retrieved from https://www.livelib.ru/author/18586/quotes/~2 (in Russian)
14. *LiveLib.* (2023, October 28). Prorok: Dzhebran Halil Dzhebran. Retrieved from https://www.livelib.ru/quote/42776645-prorok-dzhebran-halil-dzhebran (in Russian)
15. *LiveLib.* (2023, October 28). Quotes by Dzhebran Khalil Dzhebran. Retrieved from https://www.livelib.ru/author/18586/quotes/~10 (in Russian)